# "Gənc nəslin səsvermədə fəallığı məni çox sevindirir"

**19 saylı Nərimanov I Seçki Dairəsinin 16 saylı məntəqəsi önündə seçicilər çox rahatlıqla növbəliliyə riayət edirdilər. Məntəqənin giriş qapısında şəxsiyyət vəsiqələrini təqdim edib içəri daxil olaraq, öz təşəbbüsü ilə iştirak edən, eləcə də siyasi partiya bloklarından olan müşahidəçilərin nəzarəti ilə elektron lampada barmaq izlərini verirdilər.**



Məntəqədə 1478 seçicinin səsvermədə şəffaflıqla iştirak etməsi üçün lazımi şərait yaradılıb. Burada bələdiyyə üzvü olmaq istəyən 19 yerə qarşı 31 namizəd mübarizə aparırdı.

Müşahidəçilərdən Gülşən İsgəndərova və Xuraman Əliyeva bildirdilər ki, səsvermə normal keçir, elə bir ciddi qanun pozuntusu müşahidə edilməyib.

Xoş ovqatla məntəqədən çıxan seçicilərdən Teyyub Əliyev, Nərminə Əliyeva, onların qapıbir qonşuları Hümbət və Nərminə Mustafazadələrlə həmsöhbət olduq. Yaşı 60-ı ötmüş bu seçicilər məntəqədə səsvermə üçün yaradılan şəraitdən razılıqlarını bildirdilər.

Rayonun 19 saylı Nərimanov I Seçki Dairəsinin 15 saylı məntəqəsində də seçici fəallığı müşahidə olunurdu. Əksəriyyəti məntəqənin yaxınlığında yaşayan sakinlər idi. Onlar da bir-bir, ikibir qeydiyyatdan keçib, seçki kabinələrinə daxil olub istədikləri namizədə səs verirdilər. Burada bələdiyyə üzvlüyü uğrunda 19 yerə qarşı 31 nəfər mübarizəyə qoşulmuşdu.

Məntəqədə öz təşəbbüsü ilə müşahidəçi qismində iştirak edən Lalə Əzimova, eləcə də "Ana vətən" Partiyasının nümayəndəsi Məzahir Cəfərov bildirdilər ki, səsvermə prosesində heç bir neqativ hal nəzərə çarpmayıb. Məntəqənin yaxınlığında - Ağa Nemətulla küçəsi 35, mənzil 24-də yaşayan, sinəsi orden və medallarla dolu Böyük Vətən müharibəsi veteranı 84 yaşlı Şahbaba Məmmədov isə məmnunluqla dedi:

- İndiyədək neçə-neçə seçkidə iştirak etmişəm. Bugünkü seçki də çox şəffaf və rahat təşkil olunub. Gənc nəslin səsvermədə həvəslə iştirak etməsi məni çox sevindirdi. Ümidvaram ki, onlar ən layiqli namizədə səs verirlər.

## Hər kəs istədiyi namizədə səs verdi

Xətai rayonunun digər məntəqələrində olduğu kimi, rayonun 1-33 saylı dairəsinin 4 saylı seçki məntəqəsində də insanlar səsvermədə həvəslə iştirak edirdilər. Seçicilər şəxsiyyət vəsiqələrini təqdim edərək qeydiyyatdan və elektron lampada barmaq izlərini təsdiqlətməklə bülletenləri əldə edib seçki kabinələrinə daxil olub istədikləri namizədə səs verirdilər. Digər məntəqələrdə olduğu kimi, burada da veb-kamera fəaliyyət göstərirdi.

Xatırladaq ki, 2008-ci ildən etibarən ölkəmizdəki səsvermələrdə tətbiq olunan veb-kamera səsvermədə şəffaflığın təmin edilməsinə şərait yaradır. Səsvermədə iştirak edənləri və səsvermə prosesini müşahidəçilər, media nümayəndələri, habelə peşəkar seçki mütəxəssisləri rahatlıqla müşahidə edirlər.

Məntəqənin həyətində seçicilərdən Həsən və Sevda Məmmədovlarla, Sevər Rüstəmova, oğulları Vüqar, Anar və gəlini Təranə ilə, eləcə də Müseyib Əliyevlə həmsöhbət olduq. Müseyib Əliyev səsverməyə bacısı Şəmslə gəlmişdi. Müseyib Əliyev dedi:

- Bacım gəncdir, ilk dəfədir seçkilərdə iştirak edir. Tək gəlməyə çəkinirdi, tərəddüd edirdi. Qərara aldıq ki, mənimlə gəlsin. Çox sevinir ki, o, vətəndaş olaraq səsvermə hüququna malikdir.

Onlarla bərabər bizə də məntəqəyə daxil olmaq imkanı yaranır. Məntəqənin görməli yerində əyləşən bir neçə müşahidəçi prosesin qüsursuz davamına nəzarət edirdi. Onlardan "Böyük qurtuluş" Partiyasının nümayəndəsi Rövşən Həsənov və müstəqil müşahidəçi qismində könüllü iştirakçı Natiqə Hüseynova ilə həmsöhbət olduq. Hər iki müşahidəçi seçkinin normal və qanun pozuntusu olmadan keçdiyini bildirdi. Natiqə Hüseynova onu da qeyd etdi ki, bir az əvvəl ətrafda yaxşı tanınan bir nəfər şəxsiyyət vəsiqəsi olmadan şəsverməyə qatılmaq istəyirdi. Ona çox sakit və ətraflı şəkildə izah edildi ki, bu, mümkün deyil. Həmin şəxs evinə gedib, çox keçmədən şəxsiyyət vəsiqəsi ilə gəlib özünü təqdim etdi, tələblərə uyğun səs verdi. Bundan özü də, biz də çox məmnun qaldıq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 30 yanvar (№ 20).- S.8.